# "İlin hekayəsi" müsabiqəsinin qalibləri məlum oldu



Dekabrın 26-da Kulis.az-ın təşkilatçılığı, "İrshad Electronics" şirkətinin baş sponsorluğu, Mədəniyyət Nazirliyinin Kürdəmir Regional Mədəniyyət İdarəsinin dəstəyi, "LIBRAFF" kitab mağazaları şəbəkəsinin və "Pintravel" şirkətinin sponsorluğu keçirilən "İlin hekayəsi" müsabiqəsinin qaliblərinin adlarının açıqlanması və mükafatlandırma mərasimi keçirildi. Tədbir "Libraff" kitab mağazaları şəbəkəsinin Park Akademiya filialında baş tutdu.

Ümumilikdə 128 hekayənin mübarizə apardığı müsabiqədə ardıcıl olaraq, ilk iyirmilik və onluq elan olunmuşdur. Dekabrın 26-da isə ilk onluq arasından ən yaxşı üçlük açıqlandı.

Tədbiri giriş sözü ilə açan APA "Media Group"un rəhbəri Vüsalə Mahirqızı "İlin hekayəsi" müsabiqəsinin artıq ənənəyə çevrilməkdə olduğunu qeyd etdi.

"Biz artıq bu müsabiqəni ənənəyə çevirməkdəyik. Müsabiqə ətrafında ümumi müzakirələr aparılır, tənqidi və təklif yönlü fikirlər səsləndirilir ki, bu da çox yaxşı haldır. Bizim Kulis olaraq nail olmaq istədiyimiz də məhz hazırda şahidi olduğumuz bu mühiti yaratmaq idi. Bu mənzərəni yaratmaq Kulisin missiyası idi. Mən şadam ki, Kulis bunu bacarıb, buna nail olub. Mənim ən böyük istəyim odur ki, Kulis bütün ədəbiyyatsevərlərin saytı olsun. Çünki Kulis düşüncə, fikir saytıdır".

Vüsalə Mahirqızı müsabiqənin bu cür müsabiqələrə stimul ola biləcəyini qeyd etdi. "Builki müsabiqəni təşkil edəndə "Ədəbiyyata biznes şirkətləri tərəfindən qayğı göstərilmir" fikirlərini, bir növ, sınaq elədik. Müəyyən şirkətlərə müraciət etdik və cəmi bir həftəyə müraciətlərimizə müsbət cavab ala bildik. Fürsətdən istifadə edib bu layihədə əməyi keçən bütün şirkətlərə təşəkkürümü bildirirəm. Hesab edirəm ki, bu təşəbbüs digər müsabiqələr üçün örnək olacaq".

Xalq yazıçısı Sabir Rüstəmxanlı Kulisi ədəbiyyatımızın təbliğatçısı adlandırdı: "Kulis ədəbiyyatımızın təbliğatçısıdır. Zövqlüdür. Bu səbəbdən, Kulis bu gün ölkənin aparıcı ədəbiyyat saytı olmağı bacarıb. Bu müsabiqə isə Kulisin uğurlu layihələrindən biridir".

Xalq şairi Ramiz Rövşən gənc nəslin düşüncəsinə heyran olduğunu qeyd etdi: "Bu məni çox sevindirir. Düzdür, bu gün müəyyən mənada ədəbiyyatın oxucu itkisi var. Amma ədəbiyyat sevənlər yenə də ədəbiyyata sadiqdir. Dünya dəyişib, indi olan təbliğat əvvəllər olmayıb. Bu mənada gənc nəslə və indiki dövrə nikbin baxdığımı deyə bilərəm".

Ramiz Rövşən daha sonra müsabiqə haqqında da fikirlərini bölüşdü: "XX əsrə, onun ədəbiyyatına ən böyük təsir edən, töhfə verən Kafka mükafat almayıb. Amma onun xidmətləri danılmazdır. O səbəbdən, müsabiqədə qalib olmayan müəlliflərin üzülməməli olduğunu düşürəm. Bu müsabiqə isə ədəbiyyatımız adına ciddi işdir".

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid Kulisin Azərbaycan ədəbiyyatına verdiyi töhfələrdən danışdı: "Müsabiqənin təşkilinə görə, Kulisə və şəxsən Vüsalə xanıma, Ulucay Akifə təşəkkürümü bildirirəm. Kulisin ədəbiyyatımız sahəsində əməyi, xidmətləri danılmazdır. Hesab edirəm ki, bu layihə davamlı olacaq və Kulis ədəbiyyatımıza faydalı olmaqda davam edəcək".

Kulisin baş redaktoru Ulucay Akif isə müsabiqənin gedişi barədə təəssüratlarını bölüşdü: "Münsiflərin səsvermə prosesi çox gərgin oldu. Bizim istədiyimiz də, əslində, bu idi. Yekun olaraq, 5 müəllif arasında gərgin mübarizə oldu. Məsələn, ilkin olaraq, birinci yerdə iki hekayə eyni bal toplamışdı. Bu da müsabiqədə iştirak edən müəllif və hekayələrin uğurlu və ciddi olması deməkdir".

Çıxışlar bitdikdən sonra müsabiqənin münsiflər heyəti açıqlandı. Münsiflər heyətinin üzvlərinin ədəbiyyatşünas Seyfəddin Hüseynli, ədəbi tənqidçi Elnarə Akimova, yazıçılar Seymur Baycan, Mirmehdi Ağaoğlu olduğu qeyd edildi. Onlar da müsabiqə haqqında fikirlərini bölüşdükdən sonra qaliblərin adları açıqlandı.

Məlum oldu ki, müsabiqədə 3-cü yeri Xəyyam Rəfili "Üç dövrə" hekayəsi ilə, ikinci yeri Yaşar Bünyad "Quşlar qayıtdısa" hekayəsi ilə tutub. Müsabiqənin qalib hekayəsi isə Nərmin Kamalın müəllifi olduğu "Ülvi küçəsi" olub.

Şair-yazıçı Aqşin Yenisey, eləcə də Kürdəmir Regional Mədəniyyət idarəsinin direktoru Faiq Xudanlı çıxış edərək Kulis.az saytının keçirdiyi hekayə müsabiqəsinin önəmindən danışdılar, bu müsabiqənin ədəbiyyata pozitiv qida verəcəyini vurğuladılar.

Üçüncü yerin sahibinə mükafatı təqdim edən "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan bildirdi ki, "kulis.az" saytı hər il bu müsabiqəni keçirməklə əslində, dünya ədəbiyyatı, dünyada hekayə janrının göstəriciləri ilə yaxşı mənada rəqabət mühitinə imkan yaradır. Azərbaycan hekayəsinin gücünü, enerjisini, qadir olduğu potensialı bütün çalarları ilə meydana qoyub sərgiləyir".

İkinci yerin sahibinə mükafatı təqdim edən millət vəkili, yazıçı Aqil Abbas qeyd etdi ki, "indi oxucu qıtlığından çox şikayət olunur. Amma əsl ədəbiyyata diqqət yönəldən hər zaman məhdud sayda oxucu olub. Bu müsabiqənin keçirilməsi gənc nəslin ədəbiyyata marağının artmasına stimul yaradan amillərdən biridir".

Birinci yerin qalibinə mükafatı təqdim edən Xalq yazıçısı Kamal Abdulla "İlin hekayəsi" müsabiqəsinin əhəmiyyətindən bəhs etdi. O, daha sonra Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində Azərbaycan Yaradıcılıq Fondunun təsis etdiyi "Ədəbiyyat adamı-2022" mükafatını bu il "İlin hekayəsi" müsabiqəsinin hər üç qalibinə təqdim ediləcəyini bildirdi.

Qeyd edək ki, həmçinin oxucular tərəfindən onlayn səsvermə də keçirilib. Burada isə Daşqın Məmmədovun "Ata Şuşa" hekayəsi qalib olub. Müsabiqədə qalib hekayələr aşağıdakı formada mükafatlandırılıb.

I yerin qalibi - "İRŞAD"dan Notbuk, "Libraff"dan 200 AZN-lik kitab kuponu, "PİNTRAVEL" şirkətinin xüsusi hədiyyəsi,

II yerin qalibi - "İRŞAD"dan Smartfon, "Libraff"dan 100 AZN-lik kitab kuponu, "PİNTRAVEL" şirkətinin xüsusi hədiyyəsi,

III yerin qalibi - "İRŞAD"dan Poketbuk (planşet), "Libraff"dan 50 AZN-lik kitab kuponu, "PİNTRAVEL" şirkətinin xüsusi hədiyyəsi,

Onlayn səsvermənin qalibi isə Smart saat və xüsusi hədiyyələrlə mükafatlandırılıb.














